HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

*31 iyul 2016-cı il*
*№014 (28)*

*yeni_yol@mail.ru* / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / *qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur*

## TƏŞKİLATIMIZ TÜRKİYƏNİN QANUNİ HAKİMİYYƏTİNİ DƏSTƏKLƏYİR



Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı Türkiyənin qanuni hakimiyyətini dəstəkləyən bəyanat verib.

Bəyanatda deyilir: “Biz Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı olaraq qardaş Türkiyə Cumhuriyyətində baş verən çevrilişə cəhd hadisələri bizi məyus etdi və dərindən kədərləndirdi. Xalqın milli iradəsinin məhv edilməsinə xidmət edən bu çirkin oyuna alət olan xainləri şiddətlə qınayırıq. İnanırıq ki, qardaş Türkiyəni xaosa sürükləmək istəyən insanların xain planları, İlahi ədalətə uyğun olaraq xalqın birlik və bərabərliyi nəticəsində süquta uğrayacaq.

Ölkəsinin gələcəyini qorumaq üçün özünü fəda edən, bu yolda şəhid olan sadiq əsgər, polis və qəlbi imanla dolu Türkiyə vətəndaşlarına Allahdan rəhmət, yaxınlarına səbir diləyirik.

Allah ölkələrimizi hər cür fitnə və xəyanətdən mühafizə etsin!

## GYMD-DƏ TƏLƏBƏLƏRLƏ ƏNƏNƏVİ GÖRÜŞ KEÇİRİLDİ

2016-cı ilin 29 iyulunda Tbilisinin müxtəlif universitetlərinin tibb fakultələrində təhsil alan tələbələrlə Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının ofisində ənənəvi tələbə qəbulu günü təşkil edilmişdi.

Qeyd edək ki, Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının təşkilatçılığı ilə, Türkiyə Cümhuriyyəti Baş Nazirliyinin Xaricdə yaşayan Türklər və Qohum Topluluklar Nazirliyinin dəstəyi ilə, Uludağ Universitetinin ev sahibliyi ilə və Türkyə Cümhuriyyətinin Tbilisidəki səfirliyinin yardımı ilə Gürcüstan universitetlərinin tibb fakultələrində təhsil alan 26 nəfər tələbənin Türkiyənin Bursa şəhərində təcrübə keçməsi üçün “Gürcüstanlı tibb fakültəsi tələbələrinin təcrübə və gəzinti proqramı” adlı bir layihə həyata keçirilir. Layihədə iştirak edən tələbələrlə Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının Qardabanidəki ofisində təşkilatın idarə heyətinin




görüşü keçirilmişdir.

Təşkilatın sədri Musa Hacıyev onları salamlayaraq, gənclərin uğurlarının millətimizin və dövlətimizin uğuru olduğunu vurğulamışdır. O, bu yolda tələbələrə uğurlar arzulamışdır.

Tələbələrin Türkiyə səfəri avqust ayının 1-dən başlayır və proqram bir ay davam edəcək.

BİLİNƏN PROBLEMLƏR BARƏDƏ BİR NEÇƏ SÖZ 2

QLOBALLAŞAN DÜNYAMIZ 3

HƏRBİ ÇEVRİLİŞİ KÖRÜKLƏYƏN GÜCLƏRİN TANITIMI 4

DAMLANIN DƏNİZƏ XEYRİ 5

YAXŞI VƏ PİS ADAMLAR 6

FÜZULİ, ELİZBAR CAVELİDZE VƏ... MİRZƏ MƏMMƏDOĞLUNUN MEDALLARI 7

## GÜRCÜSTAN BAŞ NAZİRİ TÜRKİYƏDƏ RƏSMİ SƏFƏRDƏ OLUB



İyulun 19-da Gürcüstan baş naziri Georgi Kvirikaşvili Türkiyədə rəsmi səfərdə olub. Ankara hava limanında baş naziri Türkiyənin nəqliyyat naziri Ahmed Arslan qarşılayıb.

Türk nazirinin bəyanatında Gürcüstan baş nazirinin səfərinə Türkiyə hakimiyyətinin böyük əhəmiyyət verdiyi və regionda sabitlik nöqteyi-nəzərindən qiymətləndirdiyi fikri səsləndirilib.

Gürcüstan baş naziri Türkiyəyə və türk xalqına sülh və sabitlik arzulayaraq, bir daha hərbi çevrilişə cəhd zamanı həlak olanlarla əlaqədar başsağlığını ifadə edib.

Birgünlük səfər çərçivəsində Georgi Kvirikaşvili Türkiyənin baş naziri Binali Yıldırım və Türkiyə parlamentinin sədri İsmayıl Kahramanla görüşüb.

Səfər çərçivəsində Strateji əməkdaşlıq Şurasının yüksək səviyyədə ilk görüşü baş tutub, bundan sonra Gürcüstan və Türkiyə hökumətləri arasında əməkdaşlığa dair müqavilə imzalanıb. Görüşdən sonra Türkiyə və Gürcüstan baş nazirləri birgə bəyanat veriblər.

Gürcüstan nümayəndə heyətinin tərkibinə iqtisadiyyat naziri David Kumsişvili, XİN-nin başçısı Mixail Canelidze, səhiyyə naziri David Sergeyenko, kənd təsərrüfatı naziri Otar Danelia, probasiya və cəzaçəkmə məsələləri üzrə nazir Kaxa Kaxişvili, mədəniyyət naziri Mixail Giorqadze, ətraf mühitin mühafizəsi naziri Qiqla Aqulaşvili, parlamentin xarici əlaqələr komitəsinin sədri Tedo Çaparidze daxil idilər.

## PREZİDENT VƏ BAŞ NAZİR “AMBASSADORİAL 2016”NIN AÇILIŞINI EDİBLƏR




İyulun 26-da Tbilisidə Gürcüstanın xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin başçıları (ambassadorial) ilə görüş keçirilib. Görüş iyulun 29-dək davam edib. Tədbiri Gürcüstan prezidenti Georgi Marqvelaşvili və baş nazir Georgi Kvirikaşvili açaraq, ölkənin xarici siyasətinin prioritetləri haqqında fikirlərini bildiriblər.

Marqvelaşvili bəyan edib: “Biz Şərq tərəfdaşlığı sahəsində lider ölkəyik. Bu liderlik artıq Gürcüstanın Avropa İttifaqı ilə razılaşmalarında öz əksini tapır”.

Prezident qeyd edib ki, 2014-cü ilin iyulunda Aİ və Gürcüstan assosiasiya haqqında razılaşma imzalayıblar, bu müqavilənin ayrılmaz hissəsi dərinləşdirilən və hər şeyi əhatə edən azad ticarət zonası haqqında razılaşmadır. Gürcüstan bu razılaşmanın davamı kimi Aİ ilə viza rejiminin ləğv olunmasını gözləyir.

Baş nazir Georgi Kvirikaşvili də yaxın vaxtlarda Gürcüstan vətəndaşlarının Aİ-na vizasız səfər edəcəklərinə ümid etdiyini bildirib.

Hökumət başçısı ölkənin ərazi bütövlüyü ilə bağlı problemlərin olmasına baxmayaraq, Rusiyaya münasibətdə praqmatik və tarazlaşdırılmış siyasət yürüdülməsinin vacibliyi haqqında fikrini səsləndirib.

Gürcüstanın xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin rəhbərlərinin görüşü 15 ildir keçirilir.

Hazırda dünyada Gürcüstan XİN-nin 127 diplomatik missiyası fəaliyyət göstərir.

## BİLİNƏN PROBLEMLƏR BARƏDƏ BİR NEÇƏ SÖZ

Sözün hər mənasında Gürcüstan özünün tarixi ərzində ən həssas dönəmlərindən birini yaşayır. İyulun yandırıcı istilərinə baxmayaraq, ölkədə siyasi fəallıq şox yüksəkdir. Siyasilərimizin oktyabrın 8-də keçirilməsi planlaşdırılan parlament seçkiləri uğrunda mübarizəsi indidən kəskinliyi ilə özünü göstərməkdədir. Seçkiöncəsi seçicilərlə görüşlər, rəqibləri bu və ya digər yollarla sıradan çıxarmaq meylləri açıq-aşkar hiss olunmaqdadır. Bu marafonda istənilən Gürcüstan vətəndaşı kimi, azərbaycanlılar arasında da az-çox siyasi fəallıq müşahidə olunmaqdadır. Siyasi partiyaların seçki siyahılarında azərbaycanlıların da olması nəzəri-diqqəti cəlb edir. Amma bu məqamda bir sual meydana çıxır. Əcaba, bu seçki siyahısına düşmüş azərbaycanlı kimdir? Həmin şəxs özümü bu istəkdə bulunub, yoxsa xala xətrin qalmasın prinsipi ilə kimsə onun adını oraya əlavə edib? Və ya yenədəmi azərbaycanlılar üçün kvota müəyyənləşdirilib ki, ayıbdır, onlardan da bir-iki nəfər qanunvericilik orqanında təmsil olunsun?

Seçkilərə xeyli vaxt qalmasına baxmayaraq, MSK-da qeydiyyatdan keçən partiyaların sayı durmadan artmaqdadır. Artıq 20-dən çox partiya qeydiyyatdan keçib, bundan çoxu da qeydiyyatdan keçmə növbəsini gözləyir. Biz artıq bir dəfə də kiçik bir ölkə üçün bu qədər bölünmənin nə dərəcədə vacib olması sualını qabartmışdıq. Bu günlərdə baş nazir Georgi Kvirikaşvilinin didişməyə, ixtilafa son qoymağın vaxtının çatdığını səsləndirməsi də təsadüfi sayılmamalıdır. İqtidar və müxalifət arasında sağlam rəqabətin olması, belə bir mühitin yaradılması ölkəmizin rifahına, gələcək inkişafına, dünya birliyində öz layiqli yerini tutmasına imkan yaradardı. Təəssüflə qeyd edək ki, bizdə hələ belə bir rəqabət mühiti yoxdur. Bizim siyasilərimiz bir-birinə çamur atmaqla məşğuldurlar.

Gürcüstan kiçik bir ölkədir. Bu ölkənin strateji baxımdan mühüm bir məntəqədə yerləşdiyini də çoxları bilir. Dünyanın nadir ölkələrindən olan Gürcüstan tarixi keçmişinin zənginliyi, mədəniyyətinin özünəməxsusluğu ilə fərqləndiyi qədər də, etnik rəngarəngliyi ilə də müstəsna mövqeyə malikdir. Burada müxtəlif millət və xalqların, müxtəlif dinlərin nümayəndələri birgə yaşamaqdadırlar. Çoxetniklik Gürcüstana fərqli xüsusiyyətlər bəxş etdiyi qədər də, bəlkə də bundan çox problemlər yaradıb. Biz bunu gizlətmək, ört-basdır etməklə heç nəyə nail olmayacağımızın da fərqində olmalıyıq. Problemi zamanında həll etmədikdə sonradan çözülməsi müşkülə çevrilir. Bunu Abxaziyada, Cənubi Osetiyada, elə Dağlıq Qarabağda dondurulmuş münaqişələrin timsalında da aydın görmək olar. Münaqişələrin dondurulmasının məsələnin həlli anlamına gəlmədiyini az qala məsələdən başı çıxmayanlar da anlayırlar. Əslində vəziyyətin bu şəkildə saxlanması münaqişə tərəflərinin deyil, bu münaqişənin həll olunmasını istəməyən üçüncü tərəfin xeyrinədir.

Milli məsələ həssas məsələdir. Hər zaman özünə qarşı diqqətli olmanı tələb edir. Artıq göründüyü kimi Gürcüstanın bu sahədə kifayət qədər problemləri var. Üstəgəl, zaman-zaman Samsxe-Cavaxetidə baş qaldıran problemləri də bunun üzərinə əlavə etdikdə mənzərənin o qədər də xoşa gələn olmadığını söyləmək mükündür. Bunun üstünə azərbaycanlıların yaşadığı Borçalı bölgəsində yaşanan problemləri də gəldikdə durumun xeyli mürəkkəb olduğunu da demək olar. Keçən əsrin 90-cı illərində azərbaycanlılara qarşı başladılan ayrı-seçkilik, diskrminasiya siyasətinin izlərinə hələ də rast gəlinməkdədir. Zviad Qamsaxurdiya dönəmində azərbaycanlıların ölkədən çıxarılması üçün istifadə olunan təhrikçilik hərəkəti minlərlə adamın "könüllü" sürgününə gətirib çıxardı. Bu dönəmdə Gürcüstan, Borçalı əsilli ziyalılar Bakıda "Borcalı" ictimai cəmiyyətini təsis edərək, Gürcüstandan başlayan köç dalğasını önləmək, zorən köçkünlərə çevrilmiş insanlara sahib çıxmaq istədilər. Bu cəmiyyətin yaranması zamanın tələbi idi. Sonradan istər Gürcüstanda, istər də Azərbaycanda hakimiyyət dəyişikliyi baş verdi. Vəziyyətin bir qədər yaxşılaşdığını, yumşaldığını söyləmək olardı. Lakin Gürcüstanda azərbaycanlıların yaşadığı kəndlərin adları dəyişdirildi. Hələ ötən əsrin ortalarında Sovet Gürcüstanının başlatdığı bu proses nə yazıq ki, müstəqil Gürcüstan dönəmində də davam etdirilidi.

Sonra iqtidarlar bir-birini əvəz etdi. Yenə də vəziyyət dəyişmədi.

...Bir neçə il idi ki, "Borçalı" cəmiyyətinin təşkilatçılığı ilə düzənlənən Elat bayramı da, bu il dayndırıldı. Heç bir dövlət rəsmisi durub demədi, açıqlama vermədi ki, nəyə görə Elat Dmanisobaya çevrildi. Və heç bir rəsmi şəxs demədi ki, azərbaycanlıların yiyəsi, sahibi Gürcüstan dövlətidir və onların mədəniyyətlərini, etnoqrafik dəyərlərini qoruyub saxlamaları üçün heç bir təşkilata ehtiyac yoxdur, dövlət bunun hamısını özü edəcək. Bəli, bunu deyib, azərbaycanlıların heysiyyatı ilə heç kimin oynamadığını, əksinə onlara sahib çıxıldığını sübut etmək olardı. Təbii ki, hər bir dövlət öz təhlükəsizliyinin qayğısına qalmalıdır. Bunu heç kim inkar edə bilməz. Amma təəssüf ki, indiki iqtidar da özündən əvvəlkilərin yolu ilə gedərək, Qordi düyününü kəsmək əvəzinə ona daha bir düyün də əlavə etdi. Və növbəti dəfə tarixi şans əldən buraxıldı.

Yenə də insanlar çaş-baş vəziyyətdə "it hürən tərəfəmi, işıq gələn tərəfəmi" getmək barədə düşünmək zorunda qaldılar...

Afiq MUXTAROĞLU

## AZƏRBAYCAN MİLLİ MƏTBUATININ 141 YAŞI TAMAM OLDU



Azərbaycan milli mətbuatının yaranmasından 141 il ötür.

Azərbaycanın ilk mətbu orqanının – əsası Həsən bəy Zərdabi tərəfindən qoyulmuş "Əkinçi" qəzetinin nəşrə başladığı 22 iyul tarixi 1991-ci ildən Azərbaycanda Milli Mətbuat günü kimi qeyd olunur.

"Əkinçi"nin 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək cəmi 56 sayı işıq üzü görsə də, onun Azərbaycan milli mətbuatının təşəkkül tapmasında, inkişafında əvəzsiz rolu olub. Əsasən maarifçilik missiyasını üzərinə götürmüş "Əkinçi" az müddətdə həm ziyalı təbəqə, həm də sadə insanlar arasında çox məşhurlaşdı. Təsadüfi deyil ki, dövrünün görkəmli ziyalıları və qələm sahibləri qəzetlə əməkdaşlıq edir, müntəzəm məqalələrlə çıxış edirdilər.

Lakin "Əkinçi"nin ömrü uzun sürmədi. Çar Rusiyası qəzetin insanların maariflənməsində, ictimai-siyasi proseslərə daha yaxından bələd olmasında mühüm rol oynamasından çəkinməyə başladı və sonda qəzetin nəşrini dayandırdı.

## TÜRKİYƏNİN GÜRCÜSTAN SƏFİRLİYİNDƏ TƏLƏBƏLƏRLƏ GÖRÜŞ KEÇİRİLDİ



29 iyul 2016-cı il tarixində Gürcüstan universitetlərinin tibb fakultələrində təhsil alan tələbələrlə Türkiyə səfirliyində görüş keçirildi. Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının sədri Musa Hacıyevin rəhbərliyi ilə bir qrup tələbə Türkiyə Cümhuriyyətinin Tbilisidəki səfirliyində yüksək səviyyədə qəbul edilərək, səfir cənab Zeki Levent Gümrükçü ilə görüşmüşlər.

Cənab səfir tələbələrlə xoş ünsiyyət yaradaraq, onlara Türkiyədə yaşanan son hadisələr barədə məlumat verdi. Zeki Levent Gümrükçü indi Türkiyənin daha güvənli olduğunu vurğuladı. Cənab səfir həmçinin tələbələr üçün Türkiyə səfirliyi olaraq, lazım gələn hər cür köməyi əsirgəməyəcəklərini bildirərək, onlara təhsildə və gələcək işlərində uğurlar arzuladı.

## QARDABANİDƏ MİLLİ AZLIQLARIN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ-DİSSKUSİYA KEÇİRİLİB

İyulun 25-də Qardabani bələdiyyəsinin binasında Çoxpartiyalı Demokratiya üçün Niderland İnstitutu (NİMD) tərəfindən "Gürcüstanın siyasi həyatına milli azlıqların qoşulması prosesinin gücləndirilməsi" layihəsi çərçivəsində tədbir keçirilib. Tədbir ATƏT-in Ali komissarının Gürcüstandakı ofisinin dəstəyi ilə baş tutub.

Netherlands Institute for Multiparty Democracy

Tədbirdə Qardabani şəhərindən və rayonun kəndlərindən dəvət olunmuş nümayəndələr iştirak edirdilər.

Tədbiri NİMD-in nümayəndəsi Salome Muxuradze açaraq, bu görüş-disskusiyanın keçirilməsinin məqsədi barədə qonaqlara qısa məlumat verdi. O, Çoxpartiyalı Demokratiya üçün Niderland İnstitutunun (NİMD) 2014-cü ildən başlatdığı layihənin milli azlıqların ölkənin siyasi həyatına inteqrasiyasına dəstək məqsədilə həyata keçirildiyini bildirdi.

Daha sonra təşkilatın nümayəndəsi Levan Kaxiaşvili Kvemo Karli və Samsexe-Cavaxeti regionlarında aparılan araşdırmanın nəticələri barədə toplaşanlara ətraflı məlumat verdi. Məruzəçi tədqiqat nəticəsində bu regionlarda yaşayan qadınların ölkənin siyasi həyatında iştirakının olduqca zəif olması barədə məlumat verdikdən sonra, bu vəziyyətdən çıxış yolları barədə fikrini bildirdi.

Görüşdə Gürcüstan parlamentinin nümayəndələri, habelə parlamentdə təmsil olunmayan partiyaların nümayəndələri də iştirak edirdilər. Azad Demokratlar, Respublikaçılar, Vahid Milli Hərakat, Leyboristlər və Birləşmiş Demokratlar partiyasından olan nümayəndələr müzakirə olunan məsələlər barədə fikirlərini səsləndirərək, tədbir iştirakçılarının onlara ünvanladığı sualları cavablandırdılar.

Tədbirdə ATƏT-in Tbilisi ofisinin, Mərkəzi Seçki Komissiyasının, yerli qeyri-hökumət təşkilatlarının, medianın və dövlət strukturlarının nümayəndələri də iştirak edirdilər.

## EMMAUS GEORGİA İLK OLARAQ MARNEULİDƏ İCTİMAİ EV AÇIB

Beynəlxalq xeyriyyə təşkilatı Emmaus Georgia Marneuli şəhərində ilk ictimai ev açıb. Bu barədə təşkilat öz Facebook səhifəsində məlumat verib.

Yerli əhali bu ictimai evdə pulsuz tibbi müayinədən keçərək, həmçinin psixoloq məsləhəti ala biləcək. Marneulidə yaşayan azərbaycanlıların çoxu dövlət dilini zəif bilir. Onlar üçün ictimai evdə gürcü dilini öyrədən kurslar açılması da nəzərdə tutulur. Burada müxtəlif peşələrin öyrədilməsi üzrə pulsuz kursların açılması da planlaşdırılır.

Emmaus Georgia Tbilisi, Borjomi və ölkənin digər regionlarında da ictimai evlər açmaq niyyətindədir. Təşkilat "Kömək edin ki, biz kömək edə bilək" çağrışı ilə biznesmenlərə və bütün arzuluyanlara xeyriyyə aksiyasına qoşulmağı təklif edib.

# QLOBALLAŞAN DÜNYAMIZ

Texnologiya əsri adlandırılan bu dövrdə dünya səviyyəsində güclü bir dəyişmə küləkləri əsməkdədir. Şübhəsiz bu küləklərdən ən çox mübahisə və müzakirə ediləni globallaşmadır. Milli mədəniyyətlərin, iqtisadiyyatın və sərhədlərin ortadan qalxmağa üz tutduğu, texnologiyanın ağlasığmaz bir sürətlə inkişaf etdiyi bir çağda yaşayırıq.

Qloballaşmanın tərifi mövzusunda hələ bir fikir birliyi ortaya qoyulmayıb. Əsasən iqtisadi bir fakt olaraq qarşımıza çıxan qloballaşmanın siyasi və mədəni ölçüləri də mövcuddur. Qloballaşmanı tarixin axışı içində ortaya çıxan reallıq olduğu qədər də, beynəlxalq ticarətin, əmək və sərmayə hərəkətlərinin artması, ideoloji qütbləşmələrin sona çatması, texnologiyadakı sürətli dəyişmə nəticəsində ölkələrin gərək iqtisadi, gərəksə siyasi və mədəni baxımdan bir-birlərinə yaxınlaşması kimi də dəyərləndirə bilərik.

Qloballaşma ilə ölkələr arasındakı iqtisadi, siyasi və mədəni inteqrasiyanın artması bir çox dövlətlərin güc və fəaliyyətini azaltmışdır. Bu dövlətlər, sərhədləri daxilində fikirlərin axışını və iqtisadi siyasəti artıq idarə edə bilmir və beləcə iç siyasət vasitələri təsirini itirməkdədir. Bir baxımdan bu dövlətlər rolunu, məsuliyyətini və siyasi əlaqələrini yenidən təyin etməkdə çətinlik çəkməkdədirlər. Qloballaşma bu məzmunda bir paradoksu ortaya qoymaqdadır. Belə ki, bir tərəfdən qloballaşma ilə bütün ölkələrdə demokratiyanın inkişafı qarşıya məqsəd qoyulur, digər tərəfdən də gücün beynəlxalq quruluşlara təhvil verilməsilə ölkələr öz gələcəklərilə əlaqədar təməl qərarlar almaqdan məhrum edilirlər. Digər yandan qloballaşma, milli siyasətlərin fəaliyyətini azaltmaqda və ölkələrin radikal qərarlar almasını çətinləşdirməkdədir. Dövlətlərin daxilində etnik milliyyətçiliyə, dini təmələ söykənən muxtar bölgələr ortaya çıxmışdır.

Milli sərhədləri aşan əməliyyatların sayının və ölçüsünün günbəgün artması dövlətin gücünə mənfi istiqamətdə təsir etməkdədir. Qloballaşma müddətində transmilli firmalar həm iqtisadi, həm də siyasi qərarlar qəbul etməkdə daha təsirli rol almaqdadır. Beynəlxalq arenada fəaliyyət göstərən General Motors, Shell, Microsoft kimi firmalar bir çox hökumətdən daha böyük və daha güclü hala gəlmişdir.

Digər yandan, mədəni qloballaşma ilə ortaya çıxan mədəniyyət Qərb mədəniyyətidir. Qısaca, Qərb dəyərlərinin dünyada hakimiyyət qurmasıdır. Dünyada çox sayda fərqli mədəniyyət mövcuddur. Yerli mədəniyyətlər qlobal mədəniyyəti mənimsədiyi ölçüdə ancaq mədəni qloballaşma reallaşa biləcək. Lakin yerli mədəniyyətlərin qlobal mədəniyyətə qarşı bir reaksiya göstərməsi ehtimalı da hər vaxt mövcuddur. Digər tərəfdən mədəni qloballaşmanın ortaya çıxardığı Qərb istehlak anlayışının və həyat formasının, digər ölkələr üçün bir təhdidmi, yoxsa bir fürsətmi olduğu adamların dünyagörüşünə görə dəyişməkdədir. Liberal bir perspektivdən baxdıqda mədəni qloballaşma dünyada barış və hüzurun təmin edilməsinə kömək göstərə bilirsə, milliyyətçi-mühafizəkar perspektivdən baxdıqda milli mədəniyyətlərin yox olması mənasını verməkdədir. Ayrıca, ticari reklamçılığın artması və dünyada tək tip istehlak vərdişinin yayılmasının Qərbə aid olmayan ölkələrin ictimai inkişafına zərər verməsi ehtimalı da xeyli yüksəkdir.

Qloballaşma, bir tərəfdən yerli fərqlilikləri minimuma endirdərək ortaq bir mədəniyyət ortaya çıxarır, digər tərəfdən də qlobal şəhərin daxilində "alt şəhərlər"in ortaya çıxmasına zəmin hazırlamaqdadır. İnsanların milli dəyərlərini bir tərəfə buraxmadıqları kimi, köklərinə daha möhkəm sarılmalarına və regional blokların ortaya çıxmasına gətirib çıxararan "qlobal paradoks" yaratmaqdadır. Mədəni qloballaşma, dəyişməyə uyğunlaşmayan, dəyişmə tələbiylə bacarmayan və ya dəyişməni mənimsəmək istəməyən seqmentlərin öz iç dünyalarına bağlanmalarına səbəb olmaqdadır. Qloballaşma müddətində dəyişməyə uyğunlaşa bilməyənlər və ya bunu bacara bilməyənlərin şəxsiyyət böhranı ilə qarşı-qarşıya qalmaları və nəticədə qloballaşmağa qarşı mübarizəyə girişmələri ehtimalı da var.

Qloballaşmanın ortaya çıxardığı digər əhəmiyyətli təhdidləri bu şəkildə sıralaya bilərik: Qloballaşma ilə birgə sərmayə hərəkətləri həm həcm olaraq artmaqda, həm də qısa vədəli və spekulyativ məqsədlərə yönəlməkdədir.

Qloballaşmaın inkişaf etməkdə olan ölkələrdə işsizliyə səbəb olduğu və xüsusilə işçilərin mərhəmətsiz rəqabətin qurbanı olduğu tez-tez iddia edilməkdədir. Sürətlə artan rəqabət, inkişaf etməkdə olan ölkələrdən ucuz işçi qüvvəsi kimi istifadə olunmasına, ya da aşağı ödənişlə iş axtarışlarına məcbur etməkdədir. Bu vəziyyət isə sözü gedən ölkələrdə həm işsizliyi artırmaqda, həm də işçinin işə götürən qarşısında bazarlıq gücünü zəifləmtməkdə və onun əməyinin ödənilməsinə mənfi təsir göstərməkdədir.

Qloballaşmanın ortaya çıxardığı təhdidlərdən biri də ətraf mühit problemlərinin artırmasıdır. Dünyada bir tərəfdən rəqabətin qızışması, digər tərəfdən də dünya əhalisinin artımı ətraf mühitlə bağlı problemləri get-gedə artırmaqdadır.

Qloballaşmanın ətraf mühitlə əlaqədar ortaya çıxardığı təhlükələr bunlardır:

· Sənayeləşmənin ətraf mühitə vurduğu zərər;

· Kasıblığın ətraf mühitə vurduğu zərər;

· Kütləvi qırğın silahlarının sürətlə artması.

Sənayeləşmənin ətraf mühitə vurduğu zərər, ümumiyyətlə istehsal və istehlak fəaliyyətlərinin ortaya çıxardığı zərərli tullantılardan qaynaqlanmaqdadır. Qloballaşma ilə birlikdə ortaya çıxan sənaye məhsulları və bunun digər ölkələrə sürətlə yayılması ekoloji tarazlığı pozmaqdadır.

Ətraf mühitə zərər verən bir başqa faktor isə kasıblıqdır. Kasıblıq insanların ətraf mühitdən asılılığını artırmaqda və zəruri olaraq insanların həddindən artıq təbii qaynaqlardan istifadəsinə yönəlməkdədir. Kasıblığın sürətli əhali artımı ilə birləşməsi ətraf mühitə verilən zərəri daha da artmaqdadır. Ancaq kasıblığın ətraf mühitə verdiyi zərər sənayeləşmənin vurduğu zərərlə müqayisədə, daha dar sahəyə təsir etdiyini söyləmək mümkündür. Sənayeləşmənin ətraf mühitə verdiyi zərər daha geniş ölçülüdür, təsiri bütün dünyaya yayılmaqdadır. Bir yandan da, kütləvi qırğın silahlarının dünyada sürətlə yayılması insanlıq üçün potensial bir təhdid meydana gətirməkdədir.

Hacı BƏKİROĞLU

# GÜRCÜSTANDA TORPAQLARIN QEYDİYYATI SADƏLƏŞDİRİLİR



Gürcüstan ədliyyə naziri Tea Sulikiani hökmətin iclasında bəyan edib ki, torpaqların qeydiyyatına aid islahat layihəsi bir il ərzində fəaliyyət göstərəcək, ölkə vətəndaşları bu xidmətə pulsuz nail olacaqlar.

Ədliyyə naziri bildirib: "Biz bu qanunu təsdiq etdikdən dərhal sonra mediasiya, arayışların alınması və digər natarius xidmətləri tamamilə pulsuz olacaq. Bundan başqa kənd sakinləri üçün çoxlu problem yaradan qeyri-dəqiq kadastr çertyojları probleminin tənzimlənməsi də az əhəmiyyət daşımayacaq".

# CÜRCÜSTAN POLİSİNƏ YENİ FORMA TƏQDİM OLUNUB

Gürcüstan polis departamentinin əməkdaşlarına yeni polis forması təqdim olunub. Yeniliyin təşəbbüskarı daxili işlər naziri Georgi Mqebrişvilidir.

Yeni dizayn üzrə hazırlanmış formanı DİN-nin müavini Besik Amiranaşvili Msxeta-Mtianeti regionunda şəxsən təqdim edib.

Amiranaşvili bildirib: "Yeni xidməti forma daha keyfiyyətlidir. Ən gözəl tərtibata malikdir və ən ümdəsi polislər onu geyinməkdən xoşlanırlar".

DİN-nin strukturlarına daxil olan idarələrin əməkdaşları üçün xüsusi geyimi ildə bir dəfə keçirilən tender əsasında seçilən gürcü şirkətləri tikirlər.

# 20 PARTİYA GÜRCÜSTAN QANUNVERİCİLİK ORQANINDA YER TUTMAĞA İDDİALIDIR




Mərkəzi Seçki Komissiyası iyulun 18-dək parlament seçkilərində iştirak etmək üçün 20 partiyanı qeydiyyatdan keçirib. Məlumatı MSK-nın mətbuat xidməti yayıb.

Məlumatda Mərkəzi Seçki Komissiyasının Roin Lipartelianinin "Gürcüstanın Birləşmiş Demokratik Partiyası"nı və Lamara Giorqaşvilinin "Demokratik Gürcüstan" partiyasını qeydiyyata almaqdan imtina etdiyi də vurğulanıb.

MSK-da qeydiyyat prosesinə cari ilin 1 aprelindən start verilib. Qeydiyyat üçün artıq 56 partiyanın müraciət etdiyi bildirilib. Komissiya seçkilərə 30 gün qalandək qeydiyyatı başa çatdırmalı və partiyaların yekun siyahısını öz saytında yerləşdirməlidir.

# AZƏRBAYCAN GÜRCÜSTANA 30-DAN ARTIQ KOMBAYN VERİB



Azərbaycan Gürcüstana 30-dan artiq kombayn verib.

"Report"un məlumatına görə, bu Gürcüstan kənd təsərrüfatı nazirliyinin "Mexanizator" MMC ilə Azərbaycanın "Aqrolizinq" təşkilatı arasında əldə olunmuş müqavilə çərçivəsində və Gürcüstan tərəfin müraciəti əsasında mümkün olub.

Kombaynlar Gürcüstana 20 gün ərzində tamamlanması gərəkən məhsul yığımı üçün lazımdır.

# İZLƏMƏ KAMERALARI SÜRƏTİ ARTIRAN SÜRÜCÜLƏRİ DƏQİQLİKLƏ QEYDƏ ALACAQ

Gürcüstan daxili işlər nazirinin müavini Şalva Xutsişvilinin məlumatına görə, ölkədə quraşdırılmış kameraların çoxu fəaliyyətdədir, lakin 30%-ə yaxın kamera keyfiyyətsiz işləyir və ya heç işləmir.

Nazir müavini ölkə miqyasında artıq kameraların qeydiyyata alınmasının həyata keçrildiyini, nəticədən asılı olaraq yeni kameraların əldə olunması prosesinə başlandığını qeyd edib.

Onun sözlərinə görə, yeni kameralar qayda pozuntularını qeydə alan analizatorlarla təmin olunacaq.

Xutsişvili deyib: "Yol hərəkətı qaydasını pozub, cərimə olunmayanların şansı minimum olacaq. Yeni proqram idarəetməni təsirli şəkildə artıracaq, artıq payızda bu proqram bütün ölkə miqyasında quraşdırılacaq. Bizim gerçəkliyə daha çox uyğun gələn və qiyməti məqbul olan texnika alacayıq. Əgər avtomobil kameranın yaxınlığında sürəti azaldıb, sonra sürəti artırırsa, ikinci kameranın yaxınlığında yenidən tormozlayırsa, onsuz da yeni texnika bunu qeydə alacaq".

Onun sözlərinə görə, bu mexanizm Latviyada artıq özünü doğruldub. Latviya rəsmilərinə istinad edən Şalva Xutsişvili qayda pozuntularını qabaqlayan sistemin tətbiqindən sonra ölkədə yol nəqliyyat hadisələrinin 50% azaldığını bildirib.

# HƏRBİ ÇEVRİLİŞİ KÖRÜKLƏYƏN GÜCLƏRİN TANITIMI

***Cari ilin iyul ayının 15-i gecəsi Türkiyədə dövlət çevrilişinə cəhd bütün dünya mətbuatının bir nömrəli xəbər başlığına çevrildi. Hətta, bir gün öncə Fransanın Nitsa şəhərində baş vermiş və nəticədə 84 dinc sakinin həlak olduğu terror aktı da bu hadisənin kölgəsində qaldı. Qonşu ölkədəki məlum olayla bağlı çeşidli dairələrdə müxtəlif məzmunlu mövqe və fikirlərin səslənməsinin bolluğunu nəzərə alaraq məsələyə başqa spektrdan yanaşmağa üstünlük verməyə çalışaq. Başqa sözlə desək, hal-hazırda Türkiyəyə onun daxilindən baxaraq, xaricdən Türkiyənin necə göründüyünə nəzər yetirək. Zənnimizcə, bu zaman qardaş dövlətin dost və düşmənləri, hətta sözdə dost və tərəfdaş libasına bürünüb hər məqamda ona zərbə yetirmək istəyənləri də aydınca sezmək olar.***

İlk olaraq qeyd edək ki, Türkiyə dövləti yaranandan bəri yüksək hərbi şura-generalitet heyəti onun siyasi elitasının "kölgə" idarəedicisi olmuşdur. Yəni, zaman-zaman hökumətin yürütdüyü daxili və xarici siyasət yüksək çinli hərbiçiləri qane etmədikdə onlar Cümhuriyyətin ilk prezidenti Atatürk tərəfindən başlanmış islahatlara təhlükə yaranma bəhanəsi ilə Türkiyə Respublikasının təhlükəsizliyinin qarantı kimi legitim hakimiyyətə əl qoyumq yetgisinə sahib idilər. 1960, 1971 və 1980-ci illərdə hərbi xuntanın hakimiyyəti ələ keçirməsi və 1997-ci ildə isə dövrün Baş Naziri Nəcməddin Ərbakanı istefaya göndərməsi çağdaş Türkiyə tarixində demokratiyaya zidd qara ləkədir. Lakin, 2003-ci ildə Ərdoğan hakimiyyətə gəldikdən sonra hərbiçilərin hökumət üzərində basqısını neytirallaşdırma prossesinə başladı. Bunadək Türkiyədə ictimai münasibətləri tənzimləyən qanunların 800-dən çoxunda hərbiçilərin rolunu və səlahiyyətlərini təsdiqləyən normaların mövcudluğunu qeyd etmək kifayətdir. Şübhəsiz ki, Ərdoğanın bu addımı xaricdən idarə olunduğuna şübhə yeri qoyman Hərbi Şuranın narazılığı ilə qarşılandı.

Hal-hazırda, rəsmi Ankara dövlət çevrilişinə cəhdin baş memarının ABŞ-ın Pensilvaniya ştatına sığınmış Fətullah Gülən olduğunu vurğulayır. Türkiyə Ədliyyə Nazirliyi 2014-ci ildə "Gəzi parki" olaylarının təşkil olunmasında Fətullah Gülənə qarşı cinayət işi açaraq, onun saxlanılması üçün İnterpola müraciət etsə də, bu qurumdan neqativ cavab almışdır.

Qərb dünyasının hazırkı Türkiyənin sekulyar (dünyəvi) dövlət qurluşundan uzaqlaşaraq mühafizəkar islami dəyərlərin siyasi hakimiyyətə sirayət etməsindən və ictimai həyatda islamın mövqeyinin artmasından narahat olması sirr deyil. Ona görə də xristian Avropası və ABŞ Türkiyədə ortodoksal islami dəyərlərin müasir demokratik dəyərlərdən üstün olmasını açıq şəkildə dilə gətirirlər. Əcaba, Səudiyyə Ərəbistanı, Küveyt, Oman, Birləşmiş Ərəb Əmirliyi kimi ölkələrdə Qərb dəyərlərimi hakimdir? Bundan başqa, prezident Ərdoğanın Fələstin və digər islam coğrafiyasının qan gölünə çevrilməsində və bu ölkələrdə müsəlmanlara qarşı zülm edilməsində birbaşa Qərb tərəfdaşlarına eyham vurması ikinciləri qıcıqlandırmaya bilməz. Digər tərəfdən, Ankaranın Kreml ilə münasibətlərinin isinməyə başlaması da ABŞ və Avropa tandeminin maraqlarına ziddir. Ərdoğan iqtidarından öncəki Türkiyə hakimiyyətinin Qərb dünyasının diqtəsi ilə oturubdurması və yaxud mərkəzdənqaçma halları baş verdikdə onun hərbi çevrilişlər yolu ilə dəyişdirilməsi danılmazdır . Ona görə də yuxarıda qeyd olunan amilləri nəzərə alsaq, indiki türk iqtidarının uzun ömürlülüyünü Qərbin maraqları ilə üst-üstə düşməmə kimi qiymətləndirmək olar. Havadarları olmadan Fətullah Gülənin dövlət çevrilişi etmə riskinə getməsi heç vaxt inandırıcı ola bilməz. Əks təqdirdə, Türkiyə kimi güclü hərbi arsenala malik dövlətdə 5 general və 10-15 zabit qruplaşması ilə çevriliş etmək heç də inandırıcı deyil. Hərbi xuntanın çevrilişə başlamasının ilkin anında istər Ağ ev, istərsə də Avropanın tutarlı məkanlarının hadisələrin axarına "dayan, gözlə" prinsipi ilə yanaşması da arxasında ritorik suallar buraxır. ABŞ dövlət katibi Con Kerrinin Türkiyədə dövlət çevirilişinə cəhddən sonra həbs olunanlara qarşı ədalətli məhkəmənin tətbiq edilmədiyi və geniş ictimayyətin tələbi ilə edam cəzasının yenidən qəbul edildiyi təqdirdə Türkiyənin NATO-dan xaric ediləcəyi və Ankaranın Avropa İttifaqına üzv olmaq xəyallarının bir dəfəlik suya düşəcəyi ilə hədələməsi bəzi üstüörtülü məqamlara aydınlıq gətirir.

***Hər halda son hadisələr türk millətinin birliyini, türk iqtidarının xalq tərəfindən tam dəstəkləndiyini sübuta yetirdi. Lakin, bu, indiki Türkiyə hakimiyyətinin bəlli mərkəzlər tərəfindən planlanması ehtimal olunan sonrakı zərbələrdən sığortalanması anlamına gəlməməlidir.***

Sahib MUSTAFA

## GÜRCÜSTAN BAŞ NAZİRİ CƏMİYYƏTİ KONFRONTASİYAYA SON QOYMAĞA ÇAĞIRIR

Gürcüstan baş naziri Georgi Kvirikaşvili konfrontasiyanı, bir-biri ilə didişməyi, ixtilafı, cəmiyyətin qütbləşməsini, bir-birinə düşmən olmağı dayandırmağa çağırıb. Bu barədə baş nazir Çoxataurídə yerli sakinlərə Temur Çkuaselininin Gürcüstan parlamentinə majoritar deputatlığa namizədliyini təqdim edərkən bəyan edib.

Georgi Kvirikaşvili vurğulayıb: "Ölkəyə daha çox sülh və sabitlik lazımdır, buna görə cəmiyyətimizi sakitləşdirmək lazımdır, konfrontasiyanı, didşməni, ixtilafı, cəmiyyətin qütbləşməsini, hamının bir-birinə düşmən olması ilə qurtarmaq lazımdır... Biz ölkənin inkişafının doğru planları ətrafında maksimum birləşməliyik. Cəmiyyətə daha çox birləşmə, başqa cür düşüncəyə daha az düşmənçilik və daha çox dözümlülük lazımdır.

Biz cəmiyyəti bu konsepsiya və dünyagörüşü ətrafında birləşdirmək istəyirik".

Sonda baş nazir "Gürcü arzusu"nun bütün bunları edə biləcək güc olduğunu vurğulamağı da yaddan çıxarmayıb.

## GÜRCÜSTANA PUL KÖÇÜRMƏLƏRİ ÜZRƏ DONOR ÖLKƏLƏRİN ONLUĞU BƏLLİ OLDU



Gürcüstan Milli Bankının məlumatına görə, iyun ayında Gürcüstana xarici ölkələrdən pul şəklində 105,4 milyon ABŞ dolları həcmində köçürmələr daxil olub, bu ötən illə müqayisədə 4,9% və ya 4,9 milyon ABŞ dolları çoxdur. Pul köçürmələrinin əsas mənbəyi Gürcüstandan xarici ölkələrə mühacirət etmiş əhali tərəfindən göndərilən vəsaitlərdir. Gürcüstan əhalisinin daha çox məskunlaşdığı ölkələrdən müvafiq olaraq daha çox pul daxil olur. Bu ölkələr arasında Rusiya, Yunanıstan və İtaliya aparıcı mövqe tutur.

İyun ayında pul köçürmələri üzrə ən böyük donor ölkələrin siyahısı belədir: Rusiya (34,1 milyon dollar), Yunanıstan (12,5 milyon dollar), İtaliya (10,9 milyon dollar), ABŞ (10,1 milyon dollar), Türkiyə (7,4 milyon dollar), İsrail (4,8 milyon dollar), İspaniya (2,8 milyon dollar), Almaniya (2,7 milyon dollar), Ukrayna (1,5 milyon dollar), İngiltərə (1,4 milyon dollar).

Rusiyadan göndərilən pulun həcmi azalmaqda davam edib. Ötən ilin iyununda Rusiyadan 41,5 milyon dollar daxil olsa da, cari ildə bu 34,1 milyon dollar təşkil edib. Köçürmələrin azalma səbəbi rusiyadakı iqtisadi böhrandır.

Pul köçürmələri ölkəyə daxil olan əsas valyuta mənbələrindən biridir. İyunda onun artmasına baxmayaraq, larinin dəyərdən düşməsi tendensiyası müşahidə olunub. İyunun 1-də bir ABŞ dolları 2,14 lari, iyunun 30-da isə onun dəyəri 2,32 lari təşkil edib. Bunun səbəbi isə iyunda ixracın 15% azalması, idxalın artması və büdcə kəsirlərinin artmasıdır.

İyunda Gürcüstandan xarici ölkələrə 16,5 milyon dollar pul köçürmələri olub.

## DÜNYADA MƏKTƏBƏ GETMƏYƏN UŞAQLARIN SAYI BƏLLİ OLDU

YUNESKO dünyada məktəbə getməyən uşaqların statistikasını açıqlayıb.

Qurumun Almaniyanın Bonn şəhərində verdiyi hesabata görə, dünyada 263 milyon uşaq məktəbə getmir.

Hesabata görə, 6-11 yaş arası 61 milyon, 12-14 yaş arası 60 milyon və 15-17 yaş arası 142 milyon uşaq məktəb həyatından kənarda qalıb.

Dünyada baş verən silahlı müharibələr də uşaqların məktəbə getməsini əngəlləyən səbəblərdəndir. İbtidai sinfə getməyən uşaqların 35 faizi müharibə bölgəsində yaşayır.



## GÜRCÜSTAN MƏKTƏBLƏRİNDƏ PEŞƏ TƏHSİLİ PROQRAMI TƏTBİQ OLUNUR

Gürcüstanın ictimai məktəblərində mərhələlərlə peşəkar inkişaf proqramı tətbiq olunacaq. Bu 10-12-ci sinif şagirdlərinə, eləcə də bütün arzulayanlara peşə seçmək və hazırlıq kursları keçmək imkanı verəcək.

Proqramın başlanmasını nəzərdə tutan ilk layihə UNDP, Gürcüstan təhsil nazirliyi, özəl şirkətlər və Karelinin yerli hakimiyyət orqanlarının dəstəyilə Kareli rayonunun Aqra qəsəbə məktəbində tətbiq olunur.

BMT-nin inkişaf proqramı başçısının müavini Natia Natsvlişvili bildirib: "Təhsil sistemi şəxsi və peşəkar inkişafa imkan verməlidir. İctimai və xüsusi sektorun əməkdaşlığı onun üçün ən yaxşı vasitədir, belə təhsil işlə təmin etməyə və əmək bazarının inkişafına səbəb olur".

Sentyabrdan elektrik, çilingər, santexnik, qaynaqçı ixtisasları üzrə hazırlıq kursları başlayacaq. Yay ərzində şagirlərin ilk dəstəsini qəbul etmək üçün hazırlıq işləri başa çatdırılacaq. Pedaqoqlar müvafiq treninqlər keçəcəklər. Tədris ili ərzində proqrama 75 nəfər qoşula biləcək. Kursu bitirərkən onların yerli əmək bazarında işlə təmin olunmaq imkanları olacaq.

## RUSİYALILARIN 41%-İ YEMƏK VƏ GEYİM ÜÇÜN PUL ÇATIŞMAZLIĞI HİSS ETDİYİNİ BİLDİRİB

Daha çox rusiyalı özünü kasıb hesab edir. Ali iqtisadi məktəbin (AİM) sifarişi ilə Ümumrusiya ictimai rəyi öyrənmə mərkəzinin keçirdiyi monitorinqin nəticəsi belədir.

Ailələrinin maddi durumunun pis və ya çox pis olduğunu bildirənlərin payı 23% təşkil edir.

Rusiyalıların 41%-i lazım olan geyim və ərzaq almaq üçün kifayət qədər pullarının olmadığını bildirib.

AİM-in hesabatında gəlirlərin sürəkli enməsini, yeni iqtisadi reallığı anlayan vətəndaşların "ehtiyatlı" istehlak davranışına keçdikləri qeyd olunur.

Neft qiymətlərinin enməsi və beynəlxalq sanksiyaların davam etməsi fonunda Rusiya ÜDM-in 2015-ci ildə 3,8%, 2016-cı ildə isə 0,6% azalacağını, yalnız 2017-ci ildə 1,5% həcmində artımın olacağını proqnozlaşdırılıb.

## YUYUCU TOZ ALARKƏN DİQQƏTLİ OLUN

Üç Gürcüstan vətəndaşı Persil və Ariel markaları adı altında saxta yuyucu toz hazırladıqlarına görə saxlanılıb. Bu barədə iyulun 28-də maliyyə nazirliyinin istintaq xidməti məlumat yayıb.

Saxlanılan şəxslər yuyucu tozu kustar üsulla hazırlayarq, bütün Gürcüstan ərazisində satmaq üçün məşhur brendlərin bağlamalarında qablaşdırıblar.

Yuyucu toz 10 kiloqramlıq bağlamalarda yerləşdirilib.

Saxlanılanlardan hər birini üç ildən beş llədək azadlıqdan məhrumetmə cəzası gözləyir.

İş üzrə istintaq bir qrup şəxsin əmtəə nişanından (xidmət nişanından) qeyri-qanuni istifadə maddəsilə aparılır.

# DAMLANIN DƏNİZƏ XEYRİ

***Hər nə qədər günümüzdə gözümüzü, könlümüzü dünyanın nəhəng şeyləri özünə cəlb etmiş olsa da qəbul etməliyik ki, həyat kiçik zərrələrdən, onların qarşılıqlı əlaqəsindən, sevgisindən və ya mübarizəsindən ibarətdir. Bu zərrələr o qədər kiçikdir ki, çox zaman onları adlandırmaq, son sərhədlərini müəyyən etmək də mümkün olmur. Məsələn, bu prinsipi isbat etmək istəyən Eynşteyn (Təkcə Eynşteynmi?) ən kiçik zərrə adlandırılmış atomu para-para edib insanların önünə atmışdı. Yaşasaydı onun paralarını da bölərdi (Əslində onları bölənlər oldu), elm inkişaf etdikcə yeni eynşteynlər əlbəttə doğulacaq, əlbəttə yeniliklərə imza atacaqlar. Bu yerdəcə onlardan birinin adı Əli, Vəli, Gülçöhrə olsun deyə dua etdiyimi də sizlərdən gizlətsəm ayıb etmiş olaram. Çox ümid edirəm ki, bu duam ( təbii ki, sizin də amin deməniz şərti ilə ) yaxın gələcəkdə qəbul olacaq.***

Qozbeli qəbir düzəldər, mövzudan yayınmaqda da ustayam, tez araya öz arzularımı yerləşdirirəm, ancaq, indi cəld dönürəm. Nə deyirdik, dünya kiçik şeylərdən yaranıb və bütün böyük həngamələr varlıqlarını kiçicik zərrələrə borcludurlar. Və bu zərrələr daha gözəl və ecazkardırlar. Razı deyilsinizmi? Bol yağış sonrasında yarpaq üzərindəki damcının günəş qarşısında necə nazlandığının şahidi olmamısınız? Günəşi özünə həbs etmək iqtidarına malik o damcıcıq sizin də diqqətinizi özünə çəkməyibmi heç?

Bəs balaca, gözünüzün birinin görüb, digərinin görməkdə güclük çəkdiyi dünyanın ən yüngül şeyi olan quş lələkciyi? Zəncirotunun havaya üfürülüb dünyanın ən gözəl rəqsini edən tükcükləri necə? – Onlara da ilişmiş olmalıdır gözlərimiz... Günəşin şüalarında bir-biri ilə vuruşan milyonlarla toz zərrəcikləri... Olduqca gözəldirlər.

Onlar bizlərə əhəmiyyətsiz və lazımsız görünsələr belə, əslində olduqca möhtəşəm və həlledici ola bilirlər. İnsan gündəlik həyatında da bu cür hallarla sıx-sıx qarşılaşmaq məcburiyyətində olur. Saniyələrin vacibliyini, nə qədər böyük önəm daşıdığını və nə qədər böyük hadisələrə səbəb olduğunu hər birimiz yaxşı bilirik. Başqa zaman önəmsəməyib, heç saydığımız saniyələrin həyati önəm daşıdığı anlar olmuş və bununla da mütləq qarşılaşmışlığımız, peşman olmuşluğumuz vardır. Saniyə fərqi ilə qatarını, təyyarəsini əldən verənlər, bircə bal hesabı ilə ən lazımlı imtahandan kəsilənlər, beş tetri üçün on larilik xeyirdən olanlar indi məni anladılar... Anladılar və razılaşdılar ki, bəzən önəmsiz adlandırdığımız şeylər önəmli ola bilir. Dama-dama göl olur hər şey. Problemlər də, yalanlar da, xətalar və yanlışlar da toplanaraq artır, böyüyür, dama-dama göl olur. Gözlə görünməyən cüzi şeylər böyüyür və insanı altında əzə biləcək hala gəlir...

***Bu teoremin əksi də doğrudur. Xırdaca sevinclər dağ boyda möhtəşəmliklərə səbəb ola bilir. Saf təbəssümlər yığışıb bir dünya sevinci, bir ömür payı xoşbəxtliyi yarada bilir. Həyat gözəlliklərini gördüyümüz və ona bir gözəllik naxışı da biz vurduğumuz zaman yaşamaya dəyərdir. Bu həyat adlanan son damlanın, ilk gülüşün, ürəklərdən püskürüb gözlərdən boylanan sevincin qədrini bilib ona sevinə bildiyimiz zaman gözəldir. Bir gülüşün, çox balaca bir yaxşılığın, incə bir naxışın, birinin dodağına təbəssüm qondurmağa nail olmağın, bir qəlbi qırmamağın, bir yanlışı etməməyin, bir yalanı deməməyin dünyanı gözəlləşdirməyə qadir olduğuna və bu damlaların dənizləri xisal edəcəyinə inanmaqdan keçir xoşbəxt olmağa, aydın səmaya gedən yol... Xoşbəxt olun...***

Afayət AFİQ

# BATUMİDƏ ELEKTRİK AVTOBUSLAR HƏRƏKƏT EDƏCƏK



Batumidə elektrik avtobuslar hərəkət edəcək. Avropa Yenidənqurma və İnkişaf bankı 10 elektrik avtobusunun alınması üçün maliyyə ayıracaq. Batumi bələdiyyəsi artıq bu barədə hökumətin razılığını alıb.

Elektrik avtobuslarından əlavə Batumi bələdiyyəsi “Evro 5” standartlı dizel yanacağı ilə işləyən avtobuslar da alacaq.

“Biz qazla işləyən avtobuslar alıb-almamaq barədə də düşündük, nəhayət, dizel və elektrik nəqliyyatına üstünlük verdik. Batumi Zaqafqaziyada elektrik avtobuslarının hərəkət edəcəyi ilk şəhər olacaq”, – Batumi bələdiyyəsinin başçısı Georgi Yermakov bildirib.

Hazırda texniki detalların dəqiqləşdirilməsi işləri gedir, bundan sonra avtobusların alınması üçün tender elan olunacaq. Bir elektrrik avtobusunun təxmini qiyməti 250 min ABŞ dolları olacaq.

# BAKIDAN BATUMİYƏ AVTOBSLA DA ÇATMAQ MÜMKÜNDÜR

İyulun 25-dən Azərbaycan paytaxtını Acarıstanın paytaxtı Batumi şəhəri ilə birləşdirən yeni avtobus marşurutu işə düşüb.

İlk avtobus artıq Bakıdan Batumiyə yola salınıb. Bakıdan saat 18-də çıxan avtobus ertəsi gün səhər saat 9-da Acarıstan paytaxtına çatır ki, bu da sərnişinlərin vaxt itkisinin qarşısının alınmasında mühüm rol oynayır.

Yeni avtobus marşurutunda Bakıdan Batumiyə gediş haqqının tam qiyməti 35 Azərbaycan manatıdır. 5 yaşınadək uşaqlar üçün gediş pulsuzdur. 5-10 yaşlı uşaqlar üçün gediş qiyməti biletin dəyərinin 50%-ini təşkil edir.

# 2017-Cİ İLDƏ KUTAİSİ TOXUCULUQ SƏNAYESİ ŞƏHƏRİ OLACAQ

2017-ci ildə Kutaisi toxuculuq sənayesinin inkişaf etdiyi şəhər olmalıdır. Bu barədə Beynəlxalq sərmayəçilər assosiasiyasının rəhbəri Osman Çalışkan bəyan edib.

Onun sözlərinə görə, yaxın zamanlarda şəhərdə 2 fabrik tikiləcək, 2017-ci ilə doğru isə toxuculuq müəssisələrində 10 min adam işləyəcək.

O, bildirib ki, hazırda ən əsas problem ixtisaslı kadrların olmamasıdır. Çalışkın toxuculuq müəssisələri üçün əməkdaşlar hazırlayacaq xüsusi tədris mərkəzinin açılması məqsədilə iqtisadiyyat nazirliyi ilə danışıqlar apardığını vurğulayıb.

O, qeyd edib ki, Gürcüstana toxuculuq materialları kənardan gətiriləcək, ancaq “Gürcüstanda hazırlanıb” etiketi ilə tikilən paltarlar ixraca gedəcək.

O. Çalışqın bildirib: “Futbol üzrə 2016-cı il Avropa çempionatında 8 komanda Gürcüstanda tikilmiş paltarlarla çıxış edib ki, bu da ölkə üçün böyük fəxrdir. Bu mənada ucuz işçi qüvvəsinə və hökumət tərəfindən fəal dəstəyə görə potensial böyükdür”.

Sərmayəçi deyib: “Bu gün sərmayəçilər üçün real problem kadrların ixtisaslaşmasıdır. Biz mütəxəssislər hazırlayan məktəb açmağa hazırıq. Gürcüstanda, məsələn, əcnəbilər otel menecerləri olmamalıdırlar, yerli vətəndaşlar belə işlərə hazır olmalıdırlar. Biz öz tərəfimizdən hər şey edəcəyik ki, Gürcüstanda yerli mütəxəssislər meydana çıxsın”

# “JAC İNTERNATİONALCOMPANY” GÜRCÜSTANDA AVTOMOBİL İSTEHSALI İLƏ MARAQLANIR




Gürcüstanın iqtisadiyyat və sabit inkişaf naziri Dmitri Kumsişvili Çin Xalq Respublikasının dövlət korporasiyası olan JAC Internationalcompany-nin rəhbərləri ilə görüşüb.

Tərəflər Gürcüstanda cari və gələcək investisiya layihələrini nəzərdən keçiriblər.

Dünyanın nəhəng avtomobil istehsalçılarından biri olan Çin şirkəti Gürcüstanda istehsalın inkişafı ilə maraqlanıb.

Gürcüstan İqtisadiyyat nazirinin müavini David Xutsişvili bildirib: “Kompaniya bütün növ avtomobil vasitələri istehsal edir və Gürcüstanda investisiyalarla maraqlanır. İstehsal yaradılmasının perspektivlərinə nəzər yetirilib və şirkət bu istiqamətdə dövlət və özəl sektorla fəal əməkdaşlığa başlamaq niyyətindədir”.

# CƏNUBİ KOREYA ŞİRKƏTİ GÜRCÜSTANDA ZAVOD TİKMƏYİ PLANLAŞDIRIR

Cənubi Koreyanın Posco poladəritmə şirkəti Gürcüstanda illik gücü 1 milyon ton polad olan metallurgiya zavodu tikmək niyyətindədir.

Gürcüstan XİN-nin mətbuat xidmətindən ölkənin xarici siyasət idarəsinin müavini David Calaqaniyanın Posco-nun vitse-prezidenti Cin Cik Çonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirdiyi bildirilib. Şirkət metallurgiya zavodunun tikintisinə 500 milyon dollar sərmayə qoymaq niyyətindədir.

Görüş çərçivəsində Cənubi Koreya şirkətinin nümayəndələri Gürcüstan tərəfini ölkədə metallurgiya sənayesinin inkişafına yardım edəcək layihənin detalları və öz planları ilə tanış ediblər.

Ümumdünya polad istehsalçıları assosiasiyasının məlumatına əsasən, 2015-ci ilin yekunlarına görə Posco dünyanın ən nəhəng polad istehsalçıları beşliyinə daxildir. Posco Koreyada və ölkədən kənarda çox sayda törəmə şirkəti də idarə edir. Şirkətin məhsullarının 70%-i Cənubi Koreya bazarında satılır, 30%-i isə xaricə ixrac olunur.

# İKİMƏRTƏBƏLİ QATAR TBİLİSİDƏN BATUMİYƏ İLK REYSİNİ HƏYATA KEÇİRİB




İkimərtəbəli Stadler Kiss modelli qatar iyulun 25-də Tbilisidən Batumiyə və əks istiqamətdə ilk səfərini həyata keçirib.

Yeni qatar bir dəfəyə 400 sərnişin daşıyacaq. Qatar Batumiyə qədər cəmi iki stansiyada – Ureki və Kabuletidə dayanacaq.

“Gürcüstan dəmir yolu” SC-nin mətbuat xidmətinin rəhbəri Daçi Saquriya bildirib ki, qatarın Tbilisidən Batumiyə çatması üçün cəmi 4 saat 55 dəqiqə vaxt lazımdır. O, 2019-cu ildə bunun 4 saata mümkün olacağını vurğulayıb.

İkimərtəbəli qatar gündəlik reyslər həyata keçirəcək.

“Gürcüstan dəmir yolu” dörd ədəd ikimərtəbəli qatar alsa da, hələ qatarların ikisi işləyir. Digər iki qatarın gətirilməsi yanvar-fevral aylarında gözlənilir.

Daçi Saquriya gediş haqqının əvvəlki kimi saxlandığını, dəmir yol rəhbərliyinin qiymətlərə yenidən baxmağı düşünmədiyini bildirib.

Xatırladaq ki, turizmin inkişafı Gürcüstan siyasətinin əsas prioritetlərindən biridir. Turizmin inkişafı agentliyi bu il ölkəyə 6 milyon əcnəbinin gəlməsini proqnozlaşdırıb.

## TELEFONUMU SINDIRMAQ İSTƏYİMİN SƏBƏBİ

**Ay başınıza dönüm, ay qadanız alım, mənə bir yol göstərin, bir ağıl verin, məsləhət verin, müsəlmançılıq deyilmi? Mən bu telefonun əlindən başımı götürüb haraya geniyim ki, Allaha da xoş getsin, bəndəyə də. İndi sual edə bilərsiniz ki, bu qaragün telefonun suçu nədir, sən niyə onun əlindən belə bəndi-fərman olubsan. Düzü, o gün "Varlıq"da da yazmışdım, indi təkrar da olsa əfəndimə söyləyim ki, bu telefon zəhrimarın bircə eybi olmasaydı dolanmağa nə var , yola getməyə nə var? Bu saat mən bir-bir qulluğunuza ərz edim, siz də diqqət yetirin və görün ki, mənim dediklərimin bir danı, daldası varmı və bu məqamda mən haqlıyammı, haqsızammı? Bu telefonla cəngi-cidala çıxmamda, onunla belə qanlı-bıçaq olmamda əndərabadi bir şey görürsünüz, ya görmürsünüz? Və mənim dərin inamıma görə, siz bu məsələyə vicdanla yanaşıb, məni haqlı çıxaracaqsınız. Nədən ki, mən bu mövzunu çözməyə başlayanda bir damcı da olsa həqiqət anından uzaqlaşmamağa çalışmışam. Çalışdığım mənim ziyanıma da olsa həqiqətin ortaya çıxmasıdır.**

Sözü uzatmadan deyim ki, hər gün ünvanıma gələn mesajların nə sayı var, nə sanbalı. Bu mesajın da bir yaman zad olduğunu düşünmürəm. Nədən ki, xəbərin ünvanına ucuz yolla çatdırılması vasitəsidir və mənim belə bir şeyi söyüb, yamanlamam tərəfimdən insafsızlıq olardı. Amma bu mesajın bir əmması olmasaydı mən ağzımı yorub, vaxtımı öldürüb belə bir mövzu barədə yazardımmı? Hə, biri var doğmandan-yaxınından, dostundan-tanışından "nə var, nə yox" mesajı alırsan, biri də var ki, tanımadığın, bilmədiyin bir yerdən sənə məktub gəlir. Bunların da arasında yerlə göy qədər fərqin olması gizlədiləsi şey deyil.

Baxırsan ki, telefonun bir anlıq özünü yedi, tökdü və sən də sevincək yerindən atılırsan, xeyir xəbər alacağın düşüncəsilə az qala çırtıq çalıb, oynamaq istəyirsən. Telefonu açınca hansısa firmanın sənə ucuz bir ətçəkən maşın sırımaq istədiyini görürsən. Bu yerdə sənin həmin satıcının yaxasından tutub, məhşər ayağına çəkmək üçün təbii haqqın olduğunu söyləməyim artıqdır. Sən ətçəkənini sənə sırımaq istəyəndən, balam, mənə ət alıb veribsən və ya sən haradan bilirsən ki, mənim ətim var, özü də çəkilməsi lazımdır, bəlkə mən onu keçmiş qaydada elə balta ilə kötüyün üstündə döyəcəm kimi yüz sorğu-sual da ünvanlaya bilərsən. Nə isə, lənət sənə kor şeytan deyib, bu fikrindən daşınırsan. Elə bil telefonun da bunu gözləyirmiş, himə bənd kimi "did-did-did" eləyir. Və sən hövlənk yerindən dik atılıb, cumursan telefonun üstünə.

...başqa birisi paltaryuyanını işə keçirmək istəyir. Özü də təklif o qədər cazibadardır ki, sən az qala suyulub, razılaşmaq da istəyirsən. Düz 50% endirimlə ala biləcəyin paltaryuyanın eşqilə alışıb, yanırsan. Əvvəl-əvvəl, can bala, uşaqların anasının sözündən-gapından canım qurtardı deyib, şadlığından papağını göyə atıb, bir uzun "urrra" qışqırmaq niyyətinə düşsən də, sonra bu arzunu ürəyindəcə quyulayırsan. Niyə deyə soruşsanız deyim ki, bu paltaryuyan zəhrimarı 50% endirimlə, yəni yarı qiymətinə almaq bəlkə də işin ən tez düzələn bölümüdür. İşin bundan sonrasına fikir verin: bu paltaryuyana özü ağırlığında baxım-xidmət, bahalı yuyucu tozlar lazım deyimi? Lazımdır. Vay o gündən də, aldığın yuyucu toz saxta yolla düzəldilmiş ola, paltaryuyan zəhrimar da xarab ol, xanım da yeyib-içdiyini ağu-zəhrimar edə, anandan əmdiyini burnundan bəri gətirə. Nə isə, bu paltyuyan sevdasının altına bir daş, üstünə də bir daş qoyursan ki, evin xanımının qulağına çatmasın. Və…

Və bu an telefonundan yenə səni o cin atına mindirən növbəti "did-did-did" sədası aləmə bülənd olur. Sən də şeytana yenə yağlı yerindən bir lənət guppuldadıb, telfonun düyməsini basırsan. Pulunu qoymağa yer axtaran bir bank aşağı faizlə sənə ipoteka krediti təklif edir. Şəhərin filan yerində, yeni tikilidə qiyamət bir mənzili su qiymətinə veririk deyib, özünü öldürür. Tərəfi olmasam da, sənin bu məqamda bank icad edənin yeddi arxadan dönənini eşib cərgəyə düzməyinə qahmar çıxmaqdan savayı əlacım qalmır. Adam xəzinəsinin ağzını açıb, pul təklif edən bankdan soruşmaq istəyir ki, ay evi tar-mar olmuşun oğlu, mənim evimin dərdi sənəmi qalıb, səni düşündürən mənim evimin dərdi deyil axı? Sən qarmağına keçirməyə xam adam gəzirsən. Mən də guya çoxbilmişin biriyəm və sənin qarmağına keçməmək üçün çəm-xəm edib, sənin təklifini geri çevirirəm. Rədd ol, get başımdan, mən sən deyən axmaqlardan deyiləm deyib, israr edirəm. Amma sənə dərs keçən elə keib ki, sən iki gündən bir göndərdiyin mesajlarla məni təntidib, əlindən buraxmaq istəmirsən və günün birində istədiyinə də nail olursan. Mən də sənin müştərinə çevrilirəm…

…"did-did-did"… Deyəsən, mənim bu telefonu yerə çırbıb, dəli inək balasını çığnayan kimi, çığnamağım qalıb… Amma, hirsim soyuyub, ağlım başıma gələndən sonar telefonsuz işimigücümü necə aşıracam sualına cavab tapa biləcəmmi, tapsam da, yox olsun yoxsulluğu, yeni telefonu almağa pulu haradan tapacam.

**Pulsa cəmi bir yerdədir – bankda. Bunu da ki, bilməyən yoxdur.**

A. MUXTAROĞLU

## ABİTURİYENTLƏRİN 16 FAİZİ ÜMUMİQABİLİYYƏT İMTAHANLARINDAN KEÇƏ BİLMƏYİB

Gürcüstan Milli İmtahanlar və Qiymətləndirmə Mərkəzi ümumi qabiliyyət imtahanlarının ilkin nəticələrini elan edib.

Milli İmtahanlar və Qiymətləndirmə Mərkəzinin rəhbəri Maya Miminoşvili bildirib: "Biz abituriyentlərə ümumi qabiliyyət üzrə 4 variantda imtahan təklif etmişdik. Mürəkkəblilik baxımından variantlar arasında fərq çox azdır".

Ümumi qabiliyyət imtahanlarında 16%-ə yaxın abituryent, yəni 6000 nəfər keçid balını toplaya bilməyib.

Xatırladaq ki, vahid milli imtahanlar iyulun 1-dən 22-dək keçirilib.

## YAXŞI VƏ PİS ADAMLAR

*Ətrafımızdakı insanların əksəriyyəti sorgulamaq qabiliyyətindən istifadə etməyən insanlardan ibarətdir. Bu insanlar sayı-hesabı bilinməyən informasiyalarla yüklənirlər. Məsələn, tutalım ki, filankəslə filan vaxtda aramızda münaqişə yaranıb, yaxud da filankəs bizi öz hərəkəti ilə qıcıqlandırıb. Biz bu insan barədə artıq eşitdiyimiz və eşidəcəyimiz qaralayıcı informasiyalara inanmaq üçün hazır vəziyyətdəyik. Biz insanlar təəssüf ki, pis insanları bu cür müəyyənləşdiririk. Həmin haqqında danışdığımız filankəsin yaxşı əməlləri olduqca çox ola bilər: cibində yolpulu olmayan bir kimsənin yol pulunu ödəmiş, bir topalın qolundan tutub yolun digər tərəfinə keçirtmiş, şəfqətə ehtiyacı olan bir körpəyə təbəssüm göstərmiş ola bilər. Ancaq bunların heç birinin bir zərrə dəyəri yoxdur. O, insanların əksəriyyəti üçün yaxşı sayılsa belə bizim üçün pis insandır, çünki biz cəmmiyyətdə hamıdan daha dəyərliyik, buna uyğun olaraq da bizə edilən hörmətsizlik çəkidə bu xeyirxahlıqların hamısından daha mühümdür.*




Yaxşı insanları müəyyənləşdirmə meyarlarımız da bunun əksi kimidir. Məsələn, mənim tanıdığım bir neçə saf insan var. Hamının tanıdığı və fırıldaqçı olaraq qiymətləndirdiyi bir nəfər bunlara yaxşılığa bənzəyən nəsə edib. Həmin o bir nəfər haqqında soruşanda ki, necə adamdır? O saat başlayır ki, "Allah haqqı yaxşı adamdır; Quran haqqı, balalarımın canı üçün yaxşı adamdır ". Bu qardaşlarımızın beyinlərinin dərinliklərindəki bir qrup neyron isə başqa söz danışır: Sənin yanında tərəflərindən sapanın var-yoxuna söyürlər, əgər onların tərəfində deyilsənsə kişi deyilsən, qarşı tərəfdən köpəkləri kimi görünə bilərsən, vecinə alma, sən kişi adamsan, kişi olaraq da qal".

Yəni dediyim odur ki, bəzilərimiz bizə edilən yaxşılıqları o qədər böyüdürük ki, nətcədə oluruq tərəfkeş, fanatik-manatik və s...insanlarda çox qəribə bir ehtiyac hissi mövcuddur , deyərdim ki, bu ehtiyac beynimizin fitri bir proqramıdır: yeri oldu-olmadı tövsiyə vermək, lazım gəldi-gəlmədi hakimlik etmək, həkimlik etmək, insanları ilk baxışdan yaxşı və pis olaraq etiketləmək... götürək bu qəribə ehtiyaclardan ən axırıncı sadaladığımızı. Son dövrlərdə sürətlə inkişaf etməyə başlayan " təkamül psixologiyası" mütəxəssisləri yəqin ki bunu belə izah edərdi: "insanlar qrup halında, yaxud da icma halında yaşamağa uyğunlaşdıqları üçün onların bir qrupa , koalisiyaya, son olaraq da bir dosta ehtiyacı var ki, həyatlarını və nəsillərini davam etdirə bilsinlər. Axı insanlar cürbəcür olur; kimin yalançı, kimin əlləm-qallam, kimin dürüst, kimin sadiq olduğunu müəyyənləşdirmək lazımdır ki, işini biləsən, dostluq və qruplaşma əlaqələrində yanılmayasan, nəticədə uduzub ortada qalmayasan". Sorğulamadan inanmaq isə yenə də bu insanların uduzmaqlarına səbəb olur. Mətbuat insanların bu qəribə ehtiyacından çox gözəl istifadə edir.

***Nəticə olaraq o qədər informasiya yayılır ki, insanlar çaş-baş qalır. Çox hallarda insanların inanmaq istədiyi məlumatlar ötürülür, insanlar da inanmaq istədikləri üçün bu ehtiyaclarını acgözlüklə qarşılayırlar. İnsan pis olaraq dəyərləndirdiyi kəslərdən uzaq gəzir, onları pisləyir, çalışır ki, onlara işləri düşməsin. Yaxşı olaraq dəyərləndirdiyi insanlara isə sevgi və rəğbət bəsləyir. Beyinlərinə yeridilən sorğulanmamış informasiyalar isə onları tədricən manqurtlaşdırır. Beləliklə isə, bir xalqın, bir cəmiyyətin fəlakəti başlamış olur.***

Vüqar VƏKİLOĞLU

## TƏHSİL NAZİRİ: BİZİM UŞAQLARI "MAŞA VƏ AYI" TƏRBİYƏ EDİR



Uşaq bağçaları öz vəzifələrini lazımi səviyyədə yerinə yetirmirlər, uşaqları isə "Maşa və ayı" tərbiyə edir. Bu fikri təhsil və elm naziri Aleksandr Cecelava jurnalistlərlə görüşündə səsləndirib.

Nazir əmindir ki, uşaq bağçalarının dəyişikliyə ehtiyacı var və hökumət məktəbəqədər təhsil müəssisələrini layiqli səviyyəyə qaldırmaq üçün hər şeyi etməlidir.

Cecelava bəyan edib: "Bizdə məktəbəqədər təhsildə böyük bir boşluq var. Bir tərəfdən "sakitlik dərsləri", digər tərəfdən isə uşaqlarımızı "Maşa və ayı" tərbiyə edir".

Təhsil naziri uşaq bağçalarının ardınca məktəblərin də rayon administrasiyasının ixtiyarına keçməsini doğru sayır.

Cecelava bildirib: "Mən uşaq bağçalarının bələdiyyələrə tabe olması faktını alqışlayıram. Əgər biz Avropa demokratiyası istəyiriksə, məktəblər də bələdiyyələrə keçməlidir. Təhsil standartı bizə məxsus olacaq, qalanlarını isə bələdiyyələr həll etməli olacaqlar".

Nazir qeyd edib ki, hazırda ölkənin rayon administrasiyaları uşaq bağçalarının problemlərini həll etməyə başlayıblar, sonra məktəblərlə də işləyə bilərlər.

Nazir vurğulayıb: "Regionda hansısa məktəbin normal dam örtüyü yoxdursa, problemin həlli üçün məni axtarmamalıdır, bələdiyyə yerində kömək etməlidir. Əgər həmin bələdiyyənin başçısının uşağı o məktəbdə oxuyursa, problem daha tez həll olunacaq".

## FÜZULİ, ELİZBAR CAVELİDZE VƏ... MİRZƏ MƏMMƏDOĞLUNUN MEDALLARI

**(revers)**

***Əsrlər uzunu layiq və nalayiq sözlər deyilən, amma bütün hallarda axirəti onunla qazandığımız dünyaya kim hansı gözlə baxırsa, elə bilir dünya onun baxdığı gözlə, gördüyü bucaq altında yaranıb. Doğruluq gözü ilə baxan elə bilir dünya doğruluqdan yoğrulub, fitnə gözü ilə baxan elə bilir dünya fitnədən yaranıb, bəsirət gözü ilə baxan da elə bilir dünya bəsirətdən yaranıb. Müxtəsəri, beyət gözü də elə, əmanətdarlıq da, fəzilət də, günah da, hərislik də, xəyanət də...***

...Füzuli dünyaya məhəbbətin gözü ilə baxıb; bu, bizə əsrlər sonrası nələr pıçıldayır, nələr söyləyir?..

Ey Füzuli, nə gözəldir sözü azadəliyin!..




Hələ bu qüdrətli sənətkarın ancaq vaqiflərə məlum olan “vaqifi-əsrar” tərəfləri də öz yanıqlı-yağmurlu yerlərində...

Gürcüstanda “gürcü türkologiyasının lideri” (Apollon Silaqadzenin ifadəsidir) hesab edilən Elizbar Cavelidzenin Füzuli haqqında eyniadlı monoqrafiyası var. Bu elmi-tədqiqat əsəri 1964-cü ildə yazılıb; Füzulinin 470 illiyi ərəfəsində. Onda Elizbar Dmitriyeviç 26 yaşındaymış. O, Tiflisdə anadan olsa da mənim hazırda yaşadığım Kazreti qəsəbəsindəki 2 saylı məktəbin məzunu olub. Həmin məktəblə düz 23 il çalışdığım 1 saylı məktəbin arası cəmi 210 addımdır. Amma arazbarı sözüm bunda deyil.

...“Füzuli” monoqrafiyasının tərcüməçisi olan Mirzə Məmmədoğlu 2016-cı ildə əsəri “Universal” nəşriyyatında iki dildə – gürcü və azərbaycan dillərində nəşr etdirib.

Bir zamanlar kitabların işıq üzü görməyi az qala bayram olurdu; özü də təkcə “bizim küçə”nin bayramı deyil, həm də sən bildiyin küçələrin də bayramı olurdu. İndi “Füzuli” də səssiz qarşılandı. Mirzə müəllim bundan əvvəl də K.Pağavanın “Nizami” və “Mirzə Fətəli Axundov” monoqrafiyalarını dilimizə çevirmişdi. Hamısında da oxşar sükut və oxşar “təvazö”lər... Hətta Süsən-Sünbül tərəflərdə mısmırığını sallayanlar da tapıldı ki, bəs deməzsənmi, məgər indi monoqrafiya mühafizəkarlığı vaxtıdırmı? Bəlkə də təəcüblənmək əsassızdır. Çünki şairlə mühit arasındakı ixtilaflar da daxil “ruzi yeyənik ali-rəsulun qapısında” deyən Füzuli, haram tikə yeməyən Füzuli onsuz da zirvələrdədir. Üstəlik, rüşvət deyildir deyə salamını almayanların tam əksinə olaraq, onun sözünün işığında neçə-neçə “Füzuli qırığı” da doğulub...

...Elizbar Cavelidze də – əlbəttə, eşitdiyim qədər – hansı hakimiyyət olur-olsun, öz qətiyyətindən üz döndərməyib, prinsipiallığına xəyanət etməyib. Bəlkə də qədim-qayım həqiqətləri sevdiyi səbəbindən Füzuli kimi o da “medal” maraqlılarından olmayıb.

Təbii ki, o qüdrətli qələm sahibi bilə bilməzdi ki, günlərin bir günü Gürcüstanda – Tiflisdə də haqqında kitab yazılacaq, Bakıda ona həsr olunmuş yubiley medalı buraxılacaq. Belə görünür ki, arada-sırada medalsız da ötüşmək olmur.

Medal demiş... medallarla bağlı 101 maraqlı faktdan birinə baxsaq – misilləmə misal üçün – görərik ki, bəzi ölkələrin təbəələri xarici ölkələrin dövlət mükafatlarını qəbul edə bilməzlər. Amma Füzulinin – bu unudulmaz lələk qələm (indi nə qədər qızıl qələm sahibi var!) sahibinin timsalında heç bir “xarici” və “daxili” qayda mövcud deyil; çünki o, ərəb, fars, türk (olsun ispan dili, olsun yapon dili) dillərində olduğutək, gürcü dilində də xaric səslənmir! Qətiyyən!

Burasını da deyim ki, Füzuli yubileyinə həsr olunmuş medalı Elizbar Cavelidzenin də, Mirzə Məmmədoğlunun da yaxalarında görməyi çox istərdim... Baxmayaraq ki, Elizbar Cavelidze indiyədək Azərbaycanın Əməkdar mədəniyyət işçisi adına layiq görülüb, Gürcüstan Milli Elmlər Akademiyasının müxbir üzvüdür.

Mirzə Məmmədoğluya gəlincə, o, “Qədim Tiflis”, “Xudu Borçalı”, “Tənhalıq nəğməsi” (Revaz İnanişvilidən tərcümə) kimi köklü-gövdəli kitablar müəllifidir.

Müxtəsəri, hansı minvalla ki, Füzuli medal üçün yazmayıb, həm də Quba və Qori almaları misallı yarıalmatək oxşar minvalla Elizbar Cavelidzeni də, Mirzə Məmmədoğlunu da medalların üz (avers) və arxa (revers) tərəflərindən çox, adi gözlə görünməyən bəsirət tərəfi cazibələndirib...

***P.S.***

***Elizbar Cavelidze 1966-cı ildə “Ruhi Bağdadi” mövzusunda dissertasiya müdafiə edib. Füzulinin oğlu Fəzli ilə dostluq etmiş Ruhi Bağdadinin yaradıcılığına Füzulinin ən böyük təsiri olduğundan Mirzə Məmmədoğlunun bu elmi əsəri də dilimizə tərcümə etməsini çox istərdim. Həm də ona görə ki, dünyanın bu həzin-füzun vaxtında Sınıq körpünün bəri üzündə, Əyriqarın ətəklərinə yaxın Bağdad tərəflər adamı çox çəkir. Medalları bombardmanlarda kül olub gedən Bağdad...***

İBRAHİMXƏLİL

## SYAN TSZIDAN HƏYAT FƏLSƏFƏSİ

*İnsanların ən çox bilmək istədikləri şey, həyatdan əslində nə istəmələridir.

*Hamı kim olmaq istəyirsənsə, heç kim ola bilməyəcəksən.

*Əgər sən hamı kimi düşünürsənsə, sən artıq səhv edirsən. Çünki hamı fərqli cür düşünür.

*Əgər sən hamının əvəzinə düşünürsənsə, sən yenə də səhv edirsən. Hərənin öz qayğıları var.

*Özünəməxsus tərzdə və öz əvəzində düşün, amma yadda saxla ki, başqalarını düşünməməklə, sən ilk növbədə özünü düşünmürsən.

* Əgər sən sual verirsənsə, demək artıq cavabın yarısı sənə məlumdur.

*Başqasının səhvini bağışlamamaqla, özün səhvə yol verirsən.

Ziyadxan SEYİDƏHMƏDLİ



## OLMALIDIR

Günü gündən daha da millət oyaq olmalıdır,
Ulu türk oğlu müdam türkə dayaq olmalıdır!

Hardasa vursa qəza, qanasa türkün burunu,
Tez Turan ellərinə ümdə soraq olmalıdır!

Tikanlı qanqal kimi düşmən çoxalarsa hər gün,
Qıpçaq da, Oğuz da ovxarlı oraq olmalıdır!

Çağıraq dildə Quran bəşəri haqqın yoluna,
Vətən uğrunda isə əldə yaraq olmalıdır!

Aylı-ulduzlu o al bayrağıma olsa gərək,
Fəxrlə türkəm deyənin qanı boyaq olmalıdır!

Düşmənin arxına su töksə, şərə versə rəvac,
Xaini-xəbislərin leşi qalaq olmalıdır!

Atatürkün yolunu tutub da Haqqa yürüyən,
Hər yerdə doğru-dürüst, hər işdə haqq olmalıdır!

Axan türkün qanıdırsa damarında Ziyadın,
Özgələr tək deyil o, kəndi sayaq olmalıdır!

## QOŞMA

Nə çənsiz dağ olmaz, nə dağsız duman,
Verilib dağlara duman-çən buta.
Tamarzı könlümə eşqin oxları,
Adda-budda deyil, kaş çin-çin bata

İstər İstanbuldan, istər Bursadan,
Təki ürəkaçan olsun hər sədan,
Ayrı gəzmə haqqı sevən tərsadan,
Lap dünya dağıla, lap da Çin bata.

Cismimiz ruh evi, sirr sarayıdır,
Ömür sınaq üçün möhlət payıdır,
Ayrılıq ölümlə əkiztayıdır,
Adamı yandırar-yaxar çün o, da.

Bəxtəvərin hər an gülər çöhrəsi,
Yağ ayırar qara sudan nehrəsi,
Bəxti kəmin dərd-qəm olar bəhrəsi,
Vədəsiz vərəmlər, gedər can bada.

Hər kəsi səbr ilə izləyən fələk,
Hər vədə bir fürsət gözləyən fələk,
Mehdi-əz-zamanı gizləyən fələk,
Bir gün Ziyadı da salar cinbata.

## DÜŞƏNDƏ

Yağınan, balınan bəslənən kəsin,
Vay halına birdən şora düşəndə.
Ağıra, çətinə alışmayanın,
Halı yaman olar zora düşəndə.

Adam var qızıldan istər taxtını,
Adam var keçirər boşa vaxtını,
Yardan yarımayan söyər baxtını,
Şilə urcah olub, kora düşəndə.

Şərə könül verən, xeyirdən bezən,
Fələk ağladanı tapdayan, əzən,
Gen gündə şeytanla qol-boyun gəzən,
Allahı çağırar dara düşəndə.

Sürmə çox olanda qaşa çəkərlər,
Pullunu çox yerdə başa çəkərlər,
Ziyadın şəklini daşa çəkərlər,
Axırda güzarı gora düşəndə.

## TƏCNİS

Bir qədirbilənin düşəm oduna,
Əriyə cismimin a yağı yaxşı.
Dünyada müxənnət kəsin başından,
Xeyirxah adamın ayağı yaxşı.

Həm sorursan könlümdəki çərmə nə,
Can deyincə, həm deyirsən çər mənə,
Çən çəkilə, dağ yalacan çərmənə,
Görünə ətəyi, ayağı yaxşı.

Çıraqban eyləyib üzdə al ağı,
Ölsəm, kəfənimi sən biç, al ağı,
Qürbətin gülündən yurdun alağı,
Elini satandan a yağı yaxşı.

Ziyadxan, gəz Qarsı, dolan di Vanı,
Öyrən nə hikmətdi Yunus divanı,
Mizan-tərəzidi haqqın divanı,
Ayırar qaradan ay ağı yaxşı.

## GƏRAYLI

Qocalıq ömrün qışıdır,
Pirlər görər ayazını.
Əcəl gələr biçinçitək,
Çəkər ömrə dəryazını.

Düşdüm fəndinə fələyin,
Qurbanı oldum kələyin,
Bir ərkəsöyün mələyin,
Elə hey çəkdim nazını.

Ziyad, ömrüm tarac oldu,
Nəşəm dərdə xərac oldu,
Gözüm tox, könlüm ac oldu,
Allah yazdı bu yazını.

## AY DAĞLAR

Biz gəldi-gedər qonağıq,
Bir əhli-hal bul, ay dağlar.
Aranda günü xoş keçən,
Baxar bir az hul, ay dağlar.

Marallar çıxmır qaşına,
Kəkliklər qonmur daşına,
Şimşək əllə döy başına,
Saçlarını yol, ay dağlar.

Ziyadı döyür yellərin,
Sonasız qalıb göllərin,
Köçüb gedibdir ellərin,
Boynu buruq qal, ay dağlar.

## OLANDA

Bağçalar-bağlar pozular,
Bağbanı fərsiz olanda.
Verərlər qulaq ardına,
Sözü dəyərsiz olanda.

Dəli əkizdi Kürünən,
Dəyər ölçülər dürünən,
Olar adi sürünən,
Şahmar zəhərsiz olanda.

Hərə bir yola inanar,
Hər kəs bir cür sınanar,
Gözəl olan da qınanar,
Gülüşü yersiz olanda.

Ziyad, ömrün pir çağıdır,
Qəlbim qəmlər sığnağıdır,
El lotular yığnağıdır,
Ocaqsız, pirsiz olanda.

## NƏDİR Kİ ?

Canan candan yansa, el dayaq olsa,
Məkirli, arxalı yağı nədir ki?
Başbilən, ağıllı bilsə qədrini,
Nadanın, qanmazın lağı nədir ki?

Güman yeri sanma nərdi, nə zəri,
Hər şey bilmə malı, pulu, nə zəri,
Olarsa üstündə Haqqın nəzəri,
Bəndənin çal-çarpaz dağı nədir ki?

Yalan batman-batman, şər löyün-löyün,
Çox ötən dillərə düşübdü düyün,
Taxta çıxmağınla, ayə, az öyün,
Taxtın laxlayanı, laxı nədir ki?

Ziyadxan, eləmə nakəsdən xahiş,
Nə yandırıb şad ol, nə yanıb ayış,
Elə ağır olur hərdən yaşayış,
Dünyanın qiyamət çağı nədir ki?

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

Yeni YOL

31 iyul 2016-cı il
№014 (28)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / "იენი იოლი" საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## NAMƏLUM QƏDİM DÖVLƏTİN PAYTAXTI ÜZƏ ÇIXARILIB



Gürcü alimləri Şirak dərəsində Didnauri (Dedoplisçkaro rayonu) ətrafında qədim şəhərin ərazisində nadir tapıntının üzə çıxarılması haqqında məlumat yayıblar.

Gürcüstan mədəniyyət və abidələrin mühafizəsi nazirliyi arxeoloqların bu yaxınlarda çox güman ki, baş sərkərdəyə məxsus olan məzar aşkarladıqlarını bildirib.

Alimlər döyüşçünün düşmən oxundan öldüyünü güman edirlər. Onun arxasında bürünc qılınc tapılıb. Silah bizim eradan əvvəl XIII əsrə aid edilir.

Arxeoloqlar komleksin tam tədqiqinin əcdadlarımızın keçmişi haqqında fikri kökündən dəyişəcəyini və Şərqi Gürcüstanda dövlətin yaranma tarixini bir neçə əsr geriyə çəkəcəyini söyləyiblər.

Aralarında gil qablar, daş silahlar və bürünc əşya qalqları olan tapıntılar şəhər yerinin eradan əvvəlki ikinci minilliyin sonu, birinci minilliyin başlanğıcına aid olduğunu təsdiqləyir.

Buradan yaşayış məskəninin su ilə təchizatında istifadə edilən yüz metrlik tunel də aşkarlanıb.

Qazıntılar zamanı qurbangahı olan iki ayin binası da üzə çıxarılıb. Alimlər hesab edirlər ki, tapıntı bizi qədim hett mədəniyyətinə aparıb çıxarır.

Ekspedisiya üzvləri şəhər yerinin adı qaynaqlarda xatırlanmayan bir qədim dövlətin paytaxtı olmasını güman edirlər. Sarayın miqyası, infrastruktur, məskunlaşma sahəsi və ətraf ərazidəki məzarlıq belə düşünməyə imkan verir.

Qeyd etmək lazımdır ki, 2015-ci ildə aparılan qazıntıların nəticəsi alimləri bu qədim məskənin b.e.ə. XII-XIII əsrlərə aid olmasını düşünmyə imkan verir.

Qədim şəhər yeri 2014-cü ildə kosmosdan edilən çəklişlərin köməyi ilə aşkara çıxarılıb.

Seysmik Monitorinq Mərkəzinin məlumatları əsasında şəhərin b.e.ə IX əsrdə güclü zəlzələ nəticəsində dağıldığı müəyyənləşdirilib.

## GÜRCÜ İDMANÇILARI OLİMPİYA OYUNLARINDA QƏLƏBƏYƏ GÖRƏ 170 MİN LARİ ALACAQLAR

Rio-de Janeyro oyunlarının çempionu 170 min lari, gümüş mükafatçısı 102 min lari, bürünc mükafatçısı isə 68 min lari alacaq. Bu barədə Gürcüstanın idman naziri Tariel Xeçikaşvili MOK-da keçirdiyi mətbuat konfransında məlumat verib.

Nazir qeyd edib ki, bundan başqa gürcü idmançıları 2016-cı ildə Dünya və Avropa çempionatlarında, eləcə də beynəlxalq yarışlardakı göstəricilərinin nəticələrindən asılı olaraq, mükafatlandırılacaqlar. Bu idmançılar üçün 3 milyon 800 min lari mükafat ayrılıb. Atletlər onlara çatacaq mükafatı Braziliyada Olimpiya oyunlarının startınadək alacaqlar.

Rio-de Janeyro Olimpiya oyunlarında ölkəmizi 12 idman növü üzrə 39 idmançı təmsil edəcək ki, bu da rekord göstəricidir.

Rio2016

## XİYAR QABIĞININ FAYDASI



Xiyarı salatlara əlavə etdikdə biz adətən onun qabıqlarını soyub atırıq.

Təəssüf ki, qabıqlarla birlikdə bir çox faydalı maddələri da "tullayırıq". Xiyar orqanizm üçün vacib olan bir çox minerallarla zəngindir. Bu mineralların əksər hissəsi xiyarın məhz qabığındadır.

Xiyar və xüsusilə onun qabığı əzələlərin, o cümlədən ürək əzələsinin normal fəaliyyəti üçün vacib olan kalium və maqneziumla zəngindir.

Xiyarda olan sink və yod mədəaltı və qalxanvari vəzinin fəaliyyətini yaxşılaşdırır. Xiyarın tərkibində olan mis qanın tərkibinə və dayaq-hərəkət sisteminə müsbət təsir edir. B qrupu ilə zəngin olan xiyar sinir sisteminə də yaxşı təsir edir.

Sizə xiyar qabığından hazırlanan iki faydalı resept təqdim edirik:

1. Orta ölçüdə 3 xiyarın qabığını xırda-xırda doğrayıb, termosa yığın, üzərinə 1 stəkan qaynar su tökün, axşamdan səhərə qədər saxlayın. Səhər dəmləməni süzün, limon əlavə edib için. Bu faydalı içki bir çox vacib minerallarla zəngindir, susuzluğu aradan qaldırır, orqanizmi təmizləyir. Bu içkini hər gün içmək olar.

2. Xiyarın qabıqlarını blenderlə əzin, 1 yumurta sarısı, 1 xörək qaşığı xama əlavə edin, yaxşı qarışdırın, təmiz üz dərisinə çəkin, 20 dəqiqədən sonra ılıq suda isladılmış tamponla silin. Bu maska dərini cavanlaşdırır, ağardır, daha elastik edir.

## ÖLKƏMİZDƏ KİMİYA ÜZRƏ İLK DƏFƏ BEYNƏLXALQ OLİMPİADA KEÇİRİLİR



İyulun 23-də Gürcüstanda kimya üzrə ilk dəfə beynəlxalq olimpiadaya start verilib. Olimpiadada dünyanın 75-ə yaxın ölkəsindən 700-ə yaxın nümayəndə iştirak edir.

Gürcüstanın elm və təhsil nazirliyindən bildirilib ki, bu ölkəni, onun mədəniyyətini və zəngin tarixi irsini dünyaya göstərmək üçün böyük fürsətdir.

Xatırladaq ki, Gürcüstanın kimiya üzrə beynəlxalq olimpiadada iştirakı son bir neçə ildə mümkün olub. Belə böyük miqyaslı tədbirin keçirilməsi imkanı isə dövlət üçün misilsiz hadisədir. Kimiya üzrə beynəlxalq olimpiadanın keçirilməsi imkanı bir ölkəyə on ildə bir dəfə verilir.

Olimpiada avqustun 1-də başa çatacaq.

## İNSANLARDAN GİZLİ SAXLANILAN İXTİRALARIN TARİXÇƏSİ

Starlite – 1980-ci ildə həvəskar kimyaçı M. Vard tərəfindən icad edilib. Mühəndis öz icadının nüvə partlayışlarına qarşı davamlı olduğunu iddia edirdi. Onun bu kəşfini, plastik maddə və polimerlərdən ibarət olan Starlite maddəsini sınamaq qərarına gəldilər. Yumurtanı ora qoyaraq 1200 dərəcə istinin içinə saldılar. Starlitenin sayəsində 1200 dərəcəlik istidə adi yumurta belə bişməmişdi.

İkinci sınaq daha dəhşətli idi. Maddə 10000 dərəcə temperaturda yoxlanıldı. Sınaq bu dəfə də müsbət nətiсə verdi.

Lakin 2011-ci ildə ixtiraçının ölümündən sonra onun bu heyrətamiz ixtirası heç zaman olmamış kimi yoxa çıxdı.

Oql mühərriki – Əgər bu ixtira dünyanın neft maqnatları tərəfindən gizli saxlanılmasa idi, bütün insanların rifahına xidmət edəcəkdi. Çünki mühəndis Oql 1970-ci ildə öz maşınıüçün xüsusi mühərrik düzəltdi. Bu mühərrik benzinə qənaət etmə imkanın malik idi. 325 km məsafəyə cəmi 7,5 litr yanacaq sərf olundu. Lakin bu benzin kralları qane etmirdi. Onların milyonları bata bilərdi. Odur ki, sadə mühəndis olan Oqlun bu icadını gizləmək onlar üçün çətin olmadı.

Keçmişə səyahət maşını – 1950-cı ildə italyan rahib P. Ernetti guya keçmişə səyahət edə bilən bir maşın hazırladığını iddia edirdi. O zaman rahibin sözləri ciddi qarşılanmamışdı. Amma rəsmi Vatikan Ernettinin icadı ilə maraqlanmağa başladı. Bir kabinədən və əlavə cihazlardan ibarət olan cihazla Ernetti İsa peyğəmbərin zamanına səyahət etdiyini və oradan fotolar çəkdiyini qeyd edirdi. İnsanlar ona inanmışdılar. Amma rahib ölərkən Vatikan kilsəsindən həmin maşını məhv etməyi xahiş etdi. Onun sözünə əməl etdilər.

Teslanın ölüm şüası – fizik Nikola Tesla ömrünün sonuna yaxın ölüm şüası saçan silah hazırladı. O, bu silah vasitəsilə uzun məsafədən, hətta təyyarənin uçuş məsafəsində olan manevləri məhv edəcəyini deyirdi. Lakin bəşəriyyətin rifahı naminə bu icadını gizli saxladı. Dünya liderləri dəfələrlə Tesladan bu silah barəsində ətraflı məlumat verməsini xahiş etsələr də, alim hər dəfə onların təklifini rədd etdi. Beləliklə, Teslanın ölümündən sonra bu dəhşətli silah da həyata vəsiqə almamış məhv oldu.

## NORVEÇDƏ DÜNYANI HEYRƏTLƏNDİRƏN LAYİHƏYƏ START VERİLƏCƏK



Norveçdə suda üzən və dünyada tayı-bərabəri olmayan tunel layihəsi hazırlanır.

Wsemir.Com xəbər verir ki, 25 milyard dollara başa gələcəyi gözlənilən sualtı tunel layihəsinin 2035-ci ildə tamamlanacağı gözlənilir.

Bir çox layihə arasından seçilən bu sistem suyun altında yerləşməsi və Norveçin ən böyük problemi olan buzlaşmadan təsirlənməməsi ilə fərqlənir.

Mütəxəssislərin hesablamalarına görə, bu layihə reallaşacağı təqdirdə 21 saatlıq səfər 10 saata enəcək.

**Təsisçi:**
*"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"*

**Redaktor:** Afiq Muxtaroğlu
**Yayım Direktoru:** Hacı Bəkiroğlu

**ÜNVAN:** Qardabani şəh. Kolxoz küç, 4
**TEL:** (+995) 595 92 25 70
599 54 12 92
**EMAİL:** yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.